## 050104 –“Dili və ədəbiyyat (ingilis) müəllimliyi” ixtisasının qısa təsviri

İngilis dil və ədəbiyyat müəllimi ixtisas dilinin fonetikasının, leksikasının, morfologiyasının və sintaksisinin sistemli və ardıcıl şəkildə öyrədilməsini, təhsilalanlara müasir dilin nəzəri və praktik aspektlərini dərindən mənimsədilməsini, səlis nitq və yazı vərdişlərinin qazanılmasını, fonetika, leksika, qrammatika üzrə istənilən mövzunun və bölmənin sərbəst şəkildə təqdimatı bacarığının əldə olunmasını, sərbəst tədqiqat işi yerinə yetirmək vərdişlərini təkmilləşdirmək vəzifəsini qarşıya məqsəd qoyur.

Dil və ədəbiyyat müəllimliyi (ingilis) ixtisası üzrə təhsil proqramını mənimsəyən məzunlar İxtisas bilklərindən əlavə həm də aşağıdakı bir sıra ümumədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- Kollektivdə öz həmkarları ilə birlikdə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
- Yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
- Mədəniyyətlərarası dialoqa hazır olmaq;
-Beynəlxalq arenada işləmək;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək;
- Tənqid və özünütənqidə dözümlülük göstərmək;
- Peşə fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini bilmək və konkret şəraitdə tətbiq etməyi bacarmaq;
- Şagirdlərin müəyyən qruplarına rəhbərlik etməyi bacarmaq.

Bu ixtisas üzrə bakalvr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də universitetlərdə xarici dil (ingilis dili) müəllimi kimi işləyə bilərsiniz. Bu ixtisasa yiyələnənlər eyni zamanda xarici dilldə jurnalistika fəaliyyəti ilə məşğul ola bilər, habelə KİV sahəsində öz bacarıqlarını nümayiş etdirə, həmçinin əgər tərcüməçiliyə marağı varsa tərcüməçi kimi də işləyə bilərlər. İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.